# Müasir təhsil sistemində ən çox istifadə olunan ənənəvi təlim vasitələri

**Günel Şəmilzadə**
*ADPU-nun fəlsəfə doktorluğu hazırlığı üzrə dissertantı*
**E-mail:** gshamilzada@beu.edu.az

**Rəyçilər:** filol.ü.f.d., dos. C. Məmmədov,
tex.e.ü.f.d., dos. Ç. Həmzəyev

**Açar sözlər:** təlim metodları, ənənəvi metodlar, didaktika, sinif-dərs sistemi
**Ключевые слова:** методы обучения, традиционные методы, дидактика, классно-урочный систем
**Key words:** teaching methods, traditional methods, didactics, classroom systems

Təhsil həyatımıza müasir metodlar daxil olduqdan sonra ənənəvi təlim metodlarını tənqid etmək bir modaya çevrildi. Hətta ənənəvi metodun fəaliyyət göstərdiyi məktəbi çoxları aşağılayıcı şəkildə "yaddaş məktəbi" adlandırdı. Lakin zaman keçdikcə ənənəvi təlim metodları öz aktuallığını qoruyub saxlaya bildi. Aşağıda ən aktiv ənənəvi təlim metodları haqqında məlumat verəcəyik.

Nəqletmə - ifadənin xüsusi formasıdır. Əsasən, faktiki məlumatları təsvir və danışmaq yolu ilə çatdırır. Nəqletmə zamanı pedaqoq şəxsi hazırlığından məharətlə istifadə edir. Bu zaman o, digər pedaqoqların da peşə təcrübəsindən yararlanır.

Nəqletmə zamanı təqdim edilən faktların verilməsinə, təlimin əyani vasitələrinin tətbiqinə və mövzusuna istiqamətləndirmək vacibdir. Çalışmaq lazımdır ki, uşaqlar sonda müstəqil şəkildə ümumiləşdirmələr apara bilsinlər.

Müsahibələr — də ənənəvi təlim metodlarına aid olmaqla bir-birindən fərqlənə və müxtəlif məna daşıya bilər :

1) Təşkiledici və giriş söhbət, məşğələ başlayan zaman aparılır, məqsəd əvvəl öyrənilmiş materialın şagirdlər tərəfindən hansı səviyyədə mənimsənilməsini öyrənməkdir. Müəllim bununla həm də şagirdin qarşıdakı məşğələdə duran tapşırığı necə başa düşməsini öyrənə bilir;

2) Məlumatverici söhbət, məqsəd yeni biliklər haqqında məlumat verməkdir. Belə söhbət katexizik (sual və cavablar etiraz doğurmur, sonra cavablar yadda saxlanılır), sokratik (müəllimə qarşı yumşaq, nəzakətli, amma etiraz və tərəddüd özündə nümayiş etdirən), evrestik (şagirdi problem qarşısında qoyurlar, o, müəllim tərəfindən qoyulmuş suallara öz cavablarını verməlidir. Məhz evrestik müsahibə təhsil sahəsində geniş yayılmışdır;

3) Sintezedici müsahibə, şagirdlərin əldə etdiyi bilikləri sistemləşdirmək və ümumiləşdirmək məqsədi ilə aparılır;

4) Nəzarət — korrektəedici müsahibə, biliklərin diaqnostikasını aparmaq və ya bu bilikləri dəqiqləşdirmək, inkişaf etdirmək, onlara əlavələr etmək məqsədi ilə aparılır.

İzah — hər hansı hadisə, proses və faktın mənasını açmaqla tətbiq edilir, buna görə də oradakı səbəb-nəticə əlaqələri ardıcıllıqla verilir.

Hər hansı bir fənnin nəzəri əsasları öyrədilərkən izaha ehtiyac duyulur. Bu zaman teorem isbat edilir, riyaziyyat, fizika, kimya və coğrafiyadan məsələ həll edilir. Eyni zamanda təbiətdə baş verənlərin, insan fəaliyyətinin, sosial-mədəni hadisələrin köklü səbəb və nəticələri araşdırılaraq şərh edilir.

Təlim diskussiyası — idraki maraqları stimullaşdırmaq məqsədilə hər hansı konkret problemə dair fikir mübadiləsi aparmaq məqsədi daşıyır.

Kitab üzərində iş — (oxumaq üçün təlim materialı üzərində iş) təlim metodu kimi şagirdlərin dərslik və dərs vəsaitinin strukturu ilə tanışlıq, ona nəzər salmaq, ayrı-ayrı elementlərini oxumaq, informasiyaları öyrənmək, hər hansı suala cavab tapmaq üçün axtarışlar aparmaq, daha vacib olan parçaların qeyd edilməsi, tapşırıq və testlərin yerinə yetirilməsi, məsələ və misal həlli və s. təlim hərəkətlərini nəzərdə tutur. Lazım gəldikdə kitab üzərində iş modifikasiya oluna bilər.

Nümayişetdirmə metodu — bu metod lazımi təlim materialını göstərmək deməkdir. Onun vəzifəsi şagirdin tədqiq etdiyi obyekt, proses və hadisəni bilavasitə dərsin gedişi zamanı əyani olaraq görməsinə hesablanmışdır.

Çalışmalar — öz mahiyyəti etibarilə praktik və əqli hərəkətlərin şüurlu şəkildə təkrarından ibarətdir və peşə bacarıq və vərdişlərinin formalaşmasına istiqamətlənmişdir.

Çalışmalar dialektik təyinatına görə bir neçə formaya bölünür:

1) Başlanğıc çalışmalar, adətən, praktik nümayiş etdirmədən sonra aparılır və məqsədi nümayiş etdirilmiş hərəkətlərin lazımi şəkildə yerinə yetirilməsinə nail olmaqdır;

2) Əsas çalışmalar, məqsədi müəyyən hərəkətlərin tələb olunan səviyyəyə çatdırılması və bir sıra bacarıqları formalaşdırmaqdır;

3) Məşqedici çalışmalar, məqsədi artıq əldə olunmuş vərdişlərin saxlanılması və bacarıqların yüksək səviyyəyə çatdırılmasıdır.

Digər bir prinsip üzrə aparılan təsnifat aşağıdakı kimidir:

1) Xüsusi çalışmalar, bu dəfələrlə təkrar olunan və pedaqoji vəzifələrlə şərtlənən bacarıq və vərdişlərin möhkəmlənməsinə yönələn çalışmalardır;

2) Törəmə çalışmalar, bunlar elə çalışmalardır ki. tərkibinə əvvəl tətbiq olunmuş elementlər daxildir. Əvvəllər formalaşmış bilik və bacarıqların möhkəmlən-dirilməsi və təkrar edilməsinə yardım etmək məqsədi daşıyır.

Qarşılıqlı öyrənmə — bunu təlimin şagirdlərin qarşılıqlı əlaqəsinə əsaslanan spesifik metodu adlandırmaq olar. Onların nəzəri biliklərində, praktik hazırlıq və bacarıqlarında olan fərq burada əsas rol oynayır. Metodun mahiyyəti ondan ibarətdir ki, şagirdlər öz aralarında əsas və əlavə məlumatlarla fikir mübadiləsi aparır, birlikdə bacarıq və vərdişlər əldə edir, təlim materialını hansı səviyyədə öyrəndiklərini yoxlayırlar.

Qarşılıqlı öyrənmə müxtəlif formada ola bilər:

— cüt qarşılıqlı öyrənmə, burada iki şagirddən hər biri növbə ilə öz üzərinə müəllim və ya şagirdin rolunu götürür;

— qrup şəklində qarşılıqlı öyrənmə, qrup üzvlərindən birinə hər hansı bir fənn və ya mövzu üzrə məsləhətçi rolu verilir və o, qrup qarşısında çıxış edir;

— kollektiv qarşılıqlı öyrənmə, məsləhətçilər növbə ilə qrup qarşısında xüsusi məsələlərə dair çıxış edirlər. Bəzən də ən bacarıqlı məsləhətçi şagirdlərin biliyinin qiymətləndirilməsində müəlliminköməkçisi rolunda çıxış edə bilər.

Qarşılıqlı öyrənmə metodundan müxtəlif yaş səviyyəsində olan şagirdlərlə iş zamanı istifadə etmək olar. Onu da qeyd edək ki, metodun tətbiqi orta və yüksək yaş qrupu ilə işləyərkən daha yaxşı effekt verir. Bu metodu ibtidai sinif şagirdləri ilə iş zamanı da tətbiq etmək mümkündür, lakin bu zaman aktiv məsləhətçilər müəllimə kömək etməlidirlər.

Praktik iş — bu metod laborator metoddan böyük miqyasda nəzəri biliklərə dair praktik tapşırıqları yerinə yetirməklə fərqlənir. Məhz nəzəriyyənin praktikaya tətbiqi vərdişləri bu metodun başlıca vəzifəsidir.

Praktik iş bilikləri dərinləşdirir, vərdişləri nizamlayır, idraki fəaliyyəti stimullaşdırır, nəzarətedici və korrektəedici vəzifələri həll edir.

Məşhur Sovet psixoloqu E. Y. Qolant praktik iş prosesində idraki fəaliyyətin 5 mərhələsini qeyd edir:

1. İşin nəzəri anladılması. Müəllim onun mənasını izah edir.
2. Təlimatlandırma. Müəllim işin texniki tərəfini izah edir.
3. Sınaq mərhələsi. Bu zaman müəllim bir neçə şagirdlə praktik tapşırığı yerinə yetirir, qalan şagirdlər isə prosesi izləyirlər. Əgər təcrübəçilər səhvə yol verirlərsə, müəllim onların səhvini düzəldir.
4. İşin yerinə yetirilməsi mərhələsi. Burada şagirdlər onlar qarşısında qoyulmuş tapşırığı yerinə yetirirlər, müəllim isə əsas diqqəti səhv edən uşaqlar üzərində toplayır.
5. Nəzarət mərhələsi, müəllim şagirdlərin işini qəbul edir və qiymətləndirir, işlərin keyfiyyətinə, yerinə yetirilmə sürətinə, səliqəyə və düzgünlüyə diqqət yetirir.

Praktik iş metodu istənilən yaş səviyyəsində olan məktəblilərlə aparılan təlim zamanı tətbiq edilə bilər. Əsas tələb ondan ibarətdir ki, tapşırıqlar şagirdlərin yaş xüsusiyyətlərinə və bacarıqlarına uyğun gəlsin.

Müstəqil iş — bu elə təlim metodudur ki, onun vasitəsilə şagirdlər fərdi şəkildə nəzəri materialları öyrənməklə bilik, bacarıq və vərdişlər əldə edir, həmin nəzəri materiallara əsasən praktik işlər də yerinə yetirir.

Müstəqil iş təlimin vacib metodlarından biri sayılır, hətta digər metodların əsası hesab edilir, eyni zamanda təlim metodları arasında didaktik əlaqə həlqəsi rolunu oynayır.

Müstəqil işin baza formaları isə aşağıdakılardır:

1. Kitab, dərslik və informasiyanın digər mənbələri ilə iş.
2. Video materialların seyr edilməsi.
3. Audio materialların dinlənilməsi.
4. Kompüter və kompüter proqramları ilə iş.
5. Çalışmaların müstəqil yerinə yetirilməsi və məşq edilməsi.

**Məqalənin aktuallığı.** Məqalənin aktuallığı ondan ibarətdir ki, burada ənənəvi təlim metodlarına təhsil sahəsində çalışan bəzi insanların verdiyi qiymət, bu metodların çoxillik bir tarixə malik olması, eyni zamanda hazırda ən çox istifadə olunan ənənəvi təlim metodlarının növləri öz əksini tapmışdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla izah olunur ki, burada ayrı-ayrı metodlardan istifadə etməyin yolları, onları dərsin hansı mərhələsində tətbiq etməyin lazım olduğu qeyd edilmişdir. Məqalədə hər bir təlim növünün tipləri də verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003.
2. Безруких, М. М. Трудности обучения в начальной школе: Причины, диагностика, комплексная помощь Текст.
3. Васина, Ю. М. Дидактические условия использования компьютерных технологий в процессе обучения младших школьников Текст.: Автореф. дис. ... канд. пед. Наук. Тула, 2002.
4. А. Акбаров. Традиционные и инновационные методы обучения: применения

методов активного обучения в учебном процессе.
https://cyberleninka.ru/article/v/traditsionnye-i-innovatsionnye-metody-obucheniya-primenenie-metodov-aktivnogo-obucheniya-v-uchebnom-protsesse

**Г. Шамильзаде**

## Традиционные методы обучении использованных в современном учебной системе


### Резюме

В статье нашло отражение отношение некоторых педагогов к традиционным методам обучения. Отмечено многогодовая история этого метода и сложный путь, по которому проходил традиционный метод. Показаны виды традиционных методов обучения. Было отмечено, в каких ситуациях и на каком этапе урока применяются традиционные методы обучения. Определены те виды традиционных методов, которые сегодня способны модернизировать себя. Раскрыта роль классно-урочной системы в становлении традиционных методов обучения.


**Q. Shamilzada**

## Means of traditional training used in the system of modern training Most of all


### Summary

The article reflects the attitude of some teachers to traditional teaching methods. The multi-year history of this method and the difficult path taken by the traditional method are noted. Shows the types of traditional teaching methods. It was noted in which situations and at which stage of the lesson traditional teaching methods are applied. The types of traditional methods that are able to modernize themselves today are defined. The role of the classroom system in the development of traditional teaching methods is revealed.


**Redaksiyaya daxil olub:** 28.01.2019